**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**“İcbari Tibbi Sığorta üzrə “Xidmətlər Zərfi”ndə nəzərdə tutulmayan, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tibb müəssisələri tərəfindən həyata keçirilən bir sıra tibbi xidmətlərin haqqının müəyyənləşdirilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin müraciətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İcbari Tibbi Sığorta üzrə “Xidmətlər Zərfi”ndə nəzərdə tutulmayan, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tibb müəssisələri tərəfindən həyata keçirilən tibbi xidmətlərdən “sürücülük vəsiqəsi üçün tələb olunan sağlamlıq haqqında arayış” üçün 30 manat, “digər sağlamlıq haqqında arayışlar” üçün 15 manat məbləğində xidmət haqqı müəyyən edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və Səhiyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 11 fevral 2021-ci il

№ 41